**BADMİNTON**



Badmintonun vətəni Hindistan sayılmağına baxmayaraq, adı İngiltərənin Badminton şəhərinin adından götürülüb. 1873-cü ildə Hindistandan qayıtmış Hersoq Bofort özünün Badminton şəhərində yerləşən malikanəsində qonaqlarına volanla bir oyun nünayiş etdirmiş və bu oyun növünə maraq yaratmışdır. 1887-ci ildə Badminton həvəskarları klubu, 1893-cü ildə isə dünyada ilk Badminton təşkilatı olan Ümumingiltərə Badminton Assosiasiyası yaradılıb. XX əsrdə keçmiş SSRİ-də də bu oyun növünə maraq yüksək olmuş və beləliklə badminton ölkəmizə də gəlib cıxmışdır. 1962-ci ildə Bakı şəhərində ilk badminton yarışları, 1963-cü ildə isə artıq Azərbaycan birinciliyi keçirilib.

Badminton bud əzələlərinə, baldırlara və ombalara faydalı təsir göstərir, bel nahiyəsi və qolları gücləndirir. Çox sayda tullanmalara görə qarın əzələlərinə də böyük bir yük düşür. Həmçinin badminton oyunu zamanı çeviklik, qısa məsafələrə qaçış zamanı sürət artır, volana fokuslanan gözün əzələləri inkişaf etdiyindən görmə qabiliyyətini artırır.







**BÖLMƏNİN FƏALİYYƏTİ**

ATU-nun idman klubunun Badminton bölməsi illərdir fəaliyyət göstərir və bu bölmədə nəinki yerli tələbələr, həmçinin əcnəbi tələbələr də böyük sevgiylə iştirak edirlər. Hər il “Təbib” idman klubunda tələbələr arasında müxtəlif yarışlar keçirilir ki, bunlardan “5 mart Bədən tərbiyəsi və idman günu”, “8 noyabr Zəfər günü”, Ümummilli lider Heydər Əliyevin anım günü, Novruz bayramı və sairə. Tələbələrimiz həmçinin hər il ali təhsil müəssisələri arasıda keçirilən Respublika universiada və çempionatlarında uğurla iştirak edərək mükafatçılar sırasında yer alırlar.



**MƏŞQÇİ-MÜƏLLİM**



Mehdiyeva Nərgiz Nadir qızı 8 noyabr 1969-cü ildə anadan olub. İdman təmayüllü tam orta məktəbi bitirib. 1987-1992-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun badminton üzrə məşqçi-müəllim fakultəsində ali təhsil alıb. 1993-cü ildən Azərbaycan Tibb Universitetinin “Bədən tərbiyəsi və idman” kafedrasında badminton üzrə məşqçi vəzifəsi ilə yanaşı, 1999-2001-ci illərdə həmin kafedrada baş laborant vəzifəsində çalışıb. Hal hazırda “Təbib” idman klubunda (hazırda adı “Təbib” Tədris İdman Mərkəzi) badminton növü üzrə məşqçi-müəllim işləyir. Badminton üzrə SSRİ idman ustası, Respublika dərəcəli hakimdir. Dəfələrlə Respublika çempionu olub. 1997-ci ildə İslam Oyunlarında III yerə, 2010-cu ildə İran İslam Respublikasında keçirilən Beynəlxalq turnirdə qoşa yarışlarda bürünc medala layiq görülüb. Respublikanın idman sahəsində göstərdiyi xidmətlərinə görə Milli Olimpiya Komitəsi tərəfindən mənzillə mükafatlandırılıb, Gənclər və İdman nazirliyi tərəfindən “Fəxri bədən tərbiyəsi və idman işçisi” fəxri adına layiq görülüb. Badminton üzrə “Level 1” dərəcəli məşqçidir. 4 elmi məqalənin müəllifidir.